www.525.az Facebook.com/525-ci qəzet - 525.az İnstagram.com/525ciqezet

Ekologiya və ətraf mühitin mühafizəsi

# "COP29 Azərbaycanda bərpaolunan enerji sektorunun inkişafına təkan verəcək"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Noyabrın 11-22-də Bakıda keçiriləcək COP29 qlobal iqlim konfransı barədə əhalinin ekoloji maarifləndirilməsi məqsədilə bu günlərdə COP29 Məlumat Mərkəzi ziyarətçilərin istifadəsinə verilib. Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində COP29 Sədrliyi tərəfindən təşkil olunan Məlumat Mərkəzi vətəndaşlar arasında dayanıqlı vərdişlərin və nümunəvi davranışların inkişafına xidmət edəcək. Belə ki, Mərkəz konfransın məqsəd və hədəfləri, iqlim dəyişmələri ilə qlobal mübarizədə kollektiv fəaliyyətin əhəmiyyəti haqqında məlumatların əlçatanlığını və ekoloji biliklərin artırılmasını təmin edəcək. İnnovativ yanaşması ilə seçilən Mərkəzin məqsədi gündəlik dayanıqlı davranışları və həyat tərzini fəal şəkildə təşviq etməkdir.

Məlumat Mərkəzinin müxtəlif tematik zonaları ziyarətçilərə iqlim dəyişmələri və COP29 konfransı haqqında interaktiv və maraqlı təcrübə keçmək üçün yaradılıb. Belə ki, COP tarixi zonasında qonaqlar həmin mühüm konfransın xronoloji və coğrafi tarixçəsi ilə tanış ola, virtual səyahət zonasında VR eynəkləri vasitəsilə nadir immersiv iqlim səyahətinə çıxaraq dünyanın istənilən nöqtəsində landşaft və iqlim şəraitini izləyə bilərlər. Ziyarətçilər xüsusi elektron platforma vasitəsilə elə buradaca ianə edərək ağac əkmək imkanından yararlana, karbon kalkulyatoru vasitəsilə isə gündəlik həyat tərzi nəticəsində əmələ gələn karbon ayaq izlərini ölçə və həmin nəticələrin minimallaşdırılması üçün atılmalı addımlara dair tövsiyələr əldə edə bilərlər.

Bununla yanaşı, növbəti aylarda həftəsonu günlərində Məlumat Mərkəzində müxtəlif idman, incəsənət və maarifləndirmə tədbirləri, həmçinin digər fəaliyyətlər təşkil ediləcək.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı - COP bu Konvensiyanın ali qərar qəbul edən orqanıdır. Qurumun Katibliyi Almaniyanın Bonn şəhərində yerləşir. Hər il dünyanın çox sayda ölkələrindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün müzakirələr aparır, çağırış edirlər. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində, COP28 isə Dubayda təşkil edilib. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etmək üçün seçilməsi Azərbaycan Prezidentinin növbəti beynəlxalq qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrlik və Təhlükəsizlik Şurasına üzvlük kimi, dövlət başçısının




xarici siyasətdə ən böyük uğurlarındandır.

Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru, professor Vüqar Rəhimzadə deyir ki, COP tədbirləri ən çox dünya liderlərini bir araya gətirən toplantılar kimi tarixə düşüb. 197 ölkəni özündə birləşdirən Tərəflər Konfransına Azərbaycanın ev sahibliyi təsadüfi deyil. Bu, ilk növbədə Azərbaycanın diplomatik uğurudur. Azərbaycanın xarici siyasətinin dəyişməz prinsipləri yeni dostlar və tərəfdaşlar qazanmasında stimulverici amil rolunu oynayır. Ölkəmiz böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı maraq və hörmət prinsipləri əsasında əlaqələr qurur və onların zaman-zaman yeni prioritetlər üzrə inkişaf etdirilməsinə səy göstərir. Azərbaycanın etibarlı və arzuolunan tərəfdaş kimi dünya dövlətlərinin diqqətində olması, Avropanın enerji təhlükəsizliyinin təminatında həlledici rol oynaması uğurlu xarici siyasətimizin nəticəsidir. İqtisadiyyatını düzgün əsaslar üzərində quran Azərbaycan dünya birliyi ilə əməkdaşlığa regional çərçivədən başlasa da illər keçdikcə coğrafiyasını daha da genişləndirir. Ən əsası Azərbaycanın dövrün hər bir çağırışını zamanında dəyərləndirməsi uğurlarımızın davamlılığında öz sözünü deyir. Belə ki, Ulu öndər Heydər Əliyev iqtisadiyyatın inkişafında neft amilinə önəm verərək tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişinin imzalanmasına nail oldu. Dünya təcrübəsinə əsasən bu çağırışı etdi ki, təcrübə mübadiləsi olmadan, səylər birləşdirilmədən heç bir ölkə təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. "Əsrin müqaviləsi" Azərbaycana iqtisadi və siyasi dividend qazandırdı, regional inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevirdi. Ölkəmizin iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələri dünyanın enerji xəritəsini yenidən tərtib edir. 2017-ci ildə "Əsrin müqaviləsi"nin davamı olaraq "Yeni əsrin müqaviləsi" imzalandı. Bu mühüm saziş Azərbaycanın etibarlı tərəfdaş kimi möhkəmlənən mövqeyinin təsdiqi oldu: "Tarixən neft ölkəsi kimi tanınan və nüfuz qazanan Azərbaycan bu gün qaz və elektrik enerjisi ixracatçısına çevrilib. Ölkəmizin COP29-a ev sahibliyi onu göstərir ki, Azərbaycan özünü qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizə aparan dövlət kimi tanıdıb. Tədbir çərçivəsində Azərbaycanın bərpaolunan enerji mənbələrinin inkişafı, yaşıl enerjiyə keçid və iqlim dəyişiklikləri ilə mübarizədə qarşısına qoyduğu məqsədlər və bu istiqamətdə gördüyü işlər daha geniş auditoriyanın diqqətinə çatdırılacaq. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Bütün bunların fonunda Azərbaycanın COP29-a ev sahibliyi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional, qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir".

Millət vəkili Azər Badamov da deyir ki, COP29 beynəlxalq əhəmiyyətli tədbirdir. Bu gün dünya iqlim dəyişikliklərinin yaratdığı fəsadların dərinləşməsi ilə üz-üzədir. Hətta iqlim dəyişikliklərinə qarşı qlobal konsolidasiya olunmuş mübarizə aparılmazsa, yer kürəsində yaşayan canlı aləmin gələcəyini böyük təhlükə gözləyir. Dünyada qlobal istiləşmə nəticəsində buzlaqlar sürətlə əriyir, okeanlarda suyun səviyyəsi artır və bir çox yaşayış yerlərini suyun altında qalmaq təhlükəsi gözləyir.

Millət vəkili bildirib ki, iqlim istiləşmələri həm də quraqlıqların baş verməsinə, yer kürəsində şirin suyun azalmasına, kənd təsərrüfatı məhsullarının istehsalının kəskin aşağı düşməsinə və aclığın dünyada genişlənməsinə səbəb olur: "Ona görə də bu bəşəri bəlaya qarşı bütün dünya birləşməli və əhəmiyyətli qərarlar qəbul etməlidir. Bu baxımdan Bakıda keçiriləcək COP29 200-dən çox ölkənin arasında iqlim dəyikliklərinə qarşı mübarizədə həmrəyliyin yaradacağını hesab edirəm. Azərbaycan COP29-la bağlı qəbul olunacaq əhəmiyyətli qərarları qabaqcadan müəyyənləşdirir və çalışacağıq ki, bu tədbir iqlim dəyişikliklərə qarşı mübarizədə bir dönüş nöqtəsi olsun. Bu baxımdan nəzərdə tutulan maliyyə fondunun yaradılması imkanı aşağı olan ölkələrə iqlim dəyişikliklərinə qarşı mübarizədə dəstək verilməsinə yol açacaq. COP29-un keçirilməsi ölkəmizin bərpa olunan enerji sektorunun sıçrayışlı inkişafına təkan verəcək. Bu tədbirin keçirilməsi yaşıl enerji sektorumuza qlobal marağı artıracaq və bizim bərpa olunan enerji sahələrinin ərsəyə gətirilməsində ilk yerlərdə olmamıza kömək edəcək. COP29 dünyanın hər yerindən 10 minlərlə siyasətçinin, dövlət adamlarının, biznes strukturlarının və media nümayəndələrinin gəlməsini şərtləndirir. Bu da Azərbaycanın dünyada daha yaxşı tanıdılmasına yol açacaq. Təbii ki, bu, ilk növbədə ölkəmizin turizm sektorunun inkişafına təkan verəcək. COP29 həm də ölkəmizə qarşı edilmiş ədalətsizlikləri, torpaqlarımızı işğaldan azad etməyimizlə suverenliyimizi təmin etməyimizi və bu gün sülh gündəliyimizlə bağlı ədalətli mövqeyimizi dünya ictimaiyyətinə çatdırmağımıza imkan verəcək. Azərbaycanın dünyaya günəş kimi parladığını bütün dünya görəcək".

Millət vəkili Elşad Mirbəşiroğlu bildirib ki, bu gün beynəlxalq təhlükəsizliyə ən ciddi təhdid yaradan amillərdən biri də iqlim dəyişmələridir: "Bəşəriyyət iqlim dəyişmələrinin olduqca təhlükəli nəticələri barədə ciddi düşünməkdədir. Azərbaycan COP29 konfransına xüsusi önəm verməklə beynəlxalq təhlükəsizlik, bəşəriyyətin gələcək rifahı məsələsinə nə dərəcədə həssas yanaşdığını bir daha nümayiş etdirir. Azərbaycan dövlətinin, Prezidentin təşəbbüsləri hər zaman insanlığın rifahına, təhlükəsizliyinə xidmət edir. Ölkədə parlament seçkilərinin irəli çəkilməsi də bir daha bunu aydın nümayiş etdirir. Hesab edirəm ki, növbədənkənar parlament seçkilərindən sonra qarşıdakı daha böyük inkişaf hədəflərimizə çatmaq uğrunda çox ciddi addımlar atılacaq".

**Sevinc QARAYEVA**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub